“Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” PHŞ-nin

2024-cü il audit edilmiş maliyyə hesabatlarının qısa icmalı

Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” PHŞ (bundan sonra Müfəttişlik) Azərbaycan Respublikası ərazisində mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyini, bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin fəaliyyətinin monitorinqini və aviasiya texnikasının səmərəli istifadəsini təmin edir. Müfəttişliyin fəaliyyətinin məqsədi aviasiya qəzaları və insidentləri baş vermədən, insanların həyatına, sağlamlığına və əmlakına zərər vurulmadan uçuşların təhlükəsizliyinin daha səmərəli təşkilinin təmin edilməsindən ibarətdir.

Müfəttişliyin gəlirləri əsasən aviasiya təhlükəsizliyi xidmətindən formalaşır və 2023-cü illə müqayisədə 2024-cü ilin gəlirləri 37% artaraq **8574 min manata** çatmışdır. Müfəttişliyin 2024-cü il xərcləri 2023-ci illə müqayisədə 23% artaraq **4751 min manat** olmuşdur. 2024-cü ildə baş verən müsbət tendensiyanın nəticəsi olaraq Müfəttişliyin mənfəəti ötən illə müqayisədə 60% artaraq **2836 min manata** çatmışdır.

Gəlirlərin ötən illə müqayisədə artması və aktivlərdə müşahidə olunan yüksəliş, əsasən effektiv idarəetmə və artan əməliyyat həcmi ilə izah olunur.